Yeni Dizaynlı 5 dollarlıq Əskinaz
Daha təhlükəsiz. Daha zərif. Daha etibarlı.

# Press Reliz

**TƏCİLİ BURAXILIŞ ÜÇÜN**
13 mart 2008-ci il

**MEDİA ƏLAQƏLƏR:**
Daun Haley və ya Klaudiya Dikenz
Basma və Çap etmə Bürosu
202/874-2778

ABŞ Gizli Xidməti
İctimai Əlaqələr Ofisi
202/406-5708

Cefri Smit və ya Syuzan Stavik
Federal Ehtiyatlar Şurası
202/452-2955

Penni Kozakos
Yeni Valyuta Proqramənən Media
Dəstəyi
202/530-4887

## Yeni 5 dollarlıq əskinaz bu gün dövriyyəyə buraxılır

***Təkmilləıodirilmiıo təhlьkəsizlik cizgilərini yoxlamaq asandər***

**Kolumbiya Federal Dairəsi, VAŞİNQTON – 13 mart 2008-ci il –** Bu gün Kolumbiya Federal Dairəsi, Vaşinqtonda keçmiş prezidentin Ağ Evin yay qərargahı kimi istifadə etdiyi tarixi yerdə, Əsgərlər Evinin yanında Prezident Linkolnun Bağ evində aparılan xatirə tədbiri zamanı Federal Ehtiyat İdarəsi tərəfindən ilk yeni 5 dollarlıq əskinaz buraxıldı. Federal Ehtiyat Şurası, ABŞ Maliyyə Nazirliyi, Basma və Çap etmə Bürosu və ABŞ Gizli Xidmətindən olan rəsmilər yeni 5 dollarlıq əskinazı Linkoln Bağ evinin hədiyyələr mağazasında dövriyyəyə buraxdılar.

Federal Ehtiyat Şurasının Ehtiyat Bank Əməliyyatları və Ödəniş Sistemləri Şöbəsinin Direktor Müavini Maykl Lambert ilk yeni 5 dollarlıq əskinazı Prezident Linkolnun nitqlərindən ibarət olan kitaba xərclədi. Yeni dizaynlı 5 dollarlıq əskinazda da Prezident Linkolnun portreti əks olunur.

“Yeni dizaynlı 5 dollarlıq əskinazın təkmilləşdirilmiş təhlükəsizlik əlamətləri bu pulların saxtalaşdırılmasını çətinləşdirir və zəhmətlə qazandığımız pulları qorumağımızı təmin edir,” Lambert çıxışında dedi. “Yeni 5 dollarlıq əskinazın həqiqiliyini yoxlamaq üçün bir neçə saniyə lazımdır. Əgər təhlükəsizlik əlamətlərindən istifadə qaydasını bilsəniz, pulların həqiqiliyini asanlıqla ayırd edə bilərsiniz.”

Bu gün Federal Ehtiyat Bankları yeni dizaynlı 5 dollarlıq əskinazları müştəri banklarına paylamağa başlayacaq, onlar da öz növbəsində ticarət müəssisələrinə və istehlakçılara paylayacaq. Yeni dizaynlı 5 dollarlıq əskinazlar ilk öncə ABŞ-da dövriyyədə olacaq, daha sonra beynəlxalq banklar Federal Ehtiyata sifarişlər verdikcə digər ölkələrə yayılacaq. Köhnə əskinazları yeniləri ilə dəyişməyə ehtiyac yoxdur. Həm köhnə dizaynlı, həm də yeni dizaynlı 5 dollarlıq əskinazlar tam etibarlıdırlar.

Yeni dizaynlı 5 dollarlıq əskinazda nağd pul əməliyyatçıları və istehlakçıların istifadəsi üçün asan olan müasir təhlükəsizlik əlamətləri cəmlənib. Əskinazı işığa tutaraq aşağıdakı əlamətləri yoxlayın:

# Press Reliz

- Su nişanları: Yeni dizaynlı 5 dollarlıq əskinazda indi *iki* su nişanı var. İri “5” rəqəmi su nişanı köhnə dizaynlı 5 dollarlıq əskinazda olan Prezident Linkolnun su nişanı portretini əvəz edən portretin sağındakı boş yerdə yerləşir. İkinci su nişanı – 3 ədəd kiçik 5-dən ibarət sütun – yeni 5 dollarlıq əskinazın dizaynına əlavə edilərək portretin sol tərəfinə yerləşdirilib.
- Təhlükəsizlik Sapı: Təhlükəsizlik sapı yeni dizaynlı 5 dollarlıq əskinazda portretin sağ tərəfində şaquli istiqamətdə keçirilib. Sap boyu “USA” sözü və altında “5” rəqəmi yazılır və əskinazın hər iki tərəfindən görünür. Ultrabənövşəyi işığın altında sap mavi rəngə çalır.

Yeni dizaynlı 5 dollarlıq əskinazın üzərində portreti əks olunan Prezident Linkoln üçün tarixi əhəmiyyətinə görə, Kolumbiya Federal Dairəsi, Əsgərlər Evində yenicə restavrasiya edilmiş və ictimaiyyətə açılmış Prezident Linkolnun Bağ evi (www.lincolncottage.org) ilk yeni 5 dollarlıq əskinazın xərclənəcəyi yer olaraq seçildi. Prezident Linkoln ABŞ Gizli Xidmətini yaratdığı və milli valyutanı saxtalaşdırılmadan qorumağı agentliyin əsas vəzifəsi elan etdiyi axşam öldürüldü.

Saxta əskinazlar alan hər bir fiziki şəxs və ya müəssisə həqiqi iqtisadi itkiyə məruz qalır; 2007-ci ildə ABŞ-a 61,4 milyon dollar saxta pul keçirilib.

“ABŞ valyutasından istifadə edən hər bir şəxs saxta pul kəsənlərə qarşı müdafiə mövqeyində durur,” ABŞ Gizli Xidmətinin Direktor Müavini Maykl Merrit dedi. “Özünüzü aldanmaqdan qorumağın ən yaxşı yolu təhlükəsizlik əlamətlərini öyrənməkdir. Bu asan və cəld prosesdir.”

ABŞ Xəzinədarı Anna Eskobedo Kabral müəssisələri və fiziki şəxsləri yeni dizaynlı 5 dollarlıq əskinaz və digər yeni dizaynlı 10, 20, 50 dollarlıq əskinazlar haqqında tədris materialı sifariş vermək və ya yükləmək üçün www.moneyfactory.gov/newmoney saytına baş çəkməyə dəvət etdi. “Hər dəfə yeni əskinaz təqdim edərkən müəssisələrin və fiziki şəxslərin təhlükəsizlik əlamətlərini öyrənmələri və pulun həqiqiliyini yoxlamaları üçün lazım olan məlumatı təmin edirik.”

Müəssisələrin, maliyyə institutlarının, ticarət və professional birliklərin, vətəndaş qruplarının və fiziki şəxslərin yeni dizaynlı əskinazları tanıması və saxta pullarla aldanmalarının qarşısını almaq üçün pulsuz tədris materialları mövcuddur. 2003-cü ildən bəri ABŞ hökuməti 5, 10, 20 və 50 dollarlıq əskinazların yeni dizaynları haqqında 80 milyona yaxın ictimai tədris və təlim materialları yayıb. Materialları www.moneyfactory.gov/newmoney saytından müxtəlif dillərdə sifariş edə və ya yükləyə bilərsiniz.

Nağd əməliyyatlar aparan avadanlıqların istehsalçıları və istifadəçiləri yeni valyuta dizaynları haqqında öyrənməli olan mühüm auditoriyadır. “5 dollarlıq əskinazlar ticarət avtomatlarında, özünə xidmət və tranzit kart avtomatlarında çox sayda istifadə edildiyindən, biz 2006-cı ildə bu və ya digər nağd əməliyyatlar aparan avtomatların istehsalçıları ilə işləməyə başladıq. Məqsədimiz onların öz maşınlarının yeni dizaynlı 5 dollarlıq əskinazı qəbul etməsi üçün həmin maşınlarda lazımi nizamlamaları aparmalarını təmin etmək idi,” ABŞ Maliyyə Nazirliyinin Basma və Çap etmə Bürosunun Direktor Müavini Pamela Qardiner dedi.

# Press Reliz

Yeni dizaynlı 5 dollarlıq əskinazın fonunda, onu qabaqlayan yeni dizaynlı 10, 20 və 50 dollarlıq əskinazlarda olduğu kimi, Amerika azadlıq simvolu əks olunur. Qartal və qalxanı əks etdirən ABŞ-ın Böyük Dövlət Möhürü əskinazın ön tərəfində bənövşəyi rəngdə çap olunub. Əlavə dizayn elementlərinə daxildir:

- Əskinazın arxa tərəfində aşağı sağ küncdə iri, rahat oxunan "5" rəqəmi yeni dizaynlı 5 dollarlıq əskinazda böyüdülüb və yüksək kontrastlı bənövşəyi mürəkkəblə çap edilib ki, bu da gözləri zəif olanların denominasiyanı rahat seçmələrinə imkan verir.
- Əskinazın ön tərəfində Prezident Linkolnun portretinin ətrafındakı və əskinazın arxa tərəfində Linkolnun Xatirə Vinyetkasının ətrafındakı oval kənarlar götürülüb. Hər iki basmalar təkmilləşdirilib.
- Əskinazın ön tərəfində portretin solunda və əskinazın arxasında Xatirə Vinyetkasının sağ tərəfində kiçik, sarı rəngdə "05"-lər çap edilib.

Yeni dizaynlı 5 dollarlıq əskinazda ən çox nəzərə çarpan dizayn fərqi onun mərkəzinə açıq bənövşəyi rəngin əlavə edilməsidir, bu rəng kənarlara doğru boz rəngə çalır. Rəngin surətini çıxarmaq mümkün olduğundan istehlakçılar və nağd pul əməliyyatı aparanlar yeni 5 dollarlıq əskinazın həqiqiliyini yoxlamaq üçün əsas təhlükəsizlik əlamətləri kimi rənglərə deyil, su nişanları və təhlükəsizlik sapına diqqət etməlidirlər.

*Redaktorların nəzərinə:* *Prezident Linkolnun İllinoys Ştatı ilə sıx əlaqəsi olduğundan, Sent Luiz və Çikaqo Federal Ehtiyat Bankları yeni dizaynlı 5 dollarlıq əskinazın dövriyyəyə buraxılma gününü İllinoys, Sprinqfilddə Abraham Linkolnun Prezident Kitabxanası və Muzeyində müəllimlərin təlim seminarı və gənclərin təhsil tədbiri ilə qeyd edəcək. Tədbir İqtisadi Təhsil üzrə İllinoys Şurası ilə əməkdaşlıq şəraitində keçirilir və məqsəd müəllim və tələbələrə yeni dizaynlı 5 dollarlıq əskinaz, Prezident Linkoln və Federal Ehtiyat haqqında daha çox məlumat verməkdir. Ətraflı məlumat üçün Sent Luiz Federal Ehtiyat Bankı, Cozef Elstnerə 314-444-4892 nömrəsi ilə və ya Linkoln Prezident Kitabxanası və Muzeyi, Devid Blançetteyə 217-558-0516 nömrəsi ilə zəng edin.*

###